**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NİZAMİ MUZEYİNİN HEYKƏLTƏRAŞLIQ FONDUNUN AZƏRBAYCAN ƏDƏBİYYATI VƏ MƏDƏNİYYƏTİNİN TƏQDİMİNDƏ ROLU

İxtisas: 6220.01 ─ Muzeyşünaslıq

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Gülsəba Sahib qızı Həsənova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı– 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyində yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor
**Rafael Baba oğlu Hüseynov**

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**Nailə Məmmədəli qızı Vəlixanlı**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Elfira Hacıbaba qızı Məlikova-Qurbanova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Vüsalə Vəli qızı Məmmədzadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Memarlıq və İncəsənət İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.34 Dissertasiya şurasının bazasında BFD 1.34 qeydiyyat nömrəli Birdəfəlik dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor
____________ **Ərtegin Əbdül Vahab oğlu Salamzadə**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
____________ **Xəzər Atif oğlu Zeynalov**

Elmi seminarın sədri: AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor
____________ **Rəna Azər qızı Məmmədova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Muzeylər tarix və mədəniyyət abidələrini qorumaqla yanaşı, onları dəyərli muzey eksponatlarına çevirərək keçmişlə müasirliyi kompleks halda tədqiq etməyə və öyrənməyə şərait yaradır. Muzeyşünaslıq elminin meydana gəlməsi və təşəkkülü də muzeylərin elmi-kütləvi, elmi-tədqiqat fəaliyyəti istiqamətində inkişafı sayəsində baş vermişdir. Muzeyşünaslığın obyekti, strukturu muzey işinin xarakter və profil bölgüsü, muzeylərin cəmiyyətin sosial-mədəni həyatına inteqrasiyası ilə müəyyənləşir. Nəzəriyyəçilərin iki yerə ayırdıqları muzeyşünaslığın bir tipi də xüsusi muzeyşünaslıqdır ki, bu elmin qarşısında duran başlıca vəzifə hər hansı ixtisaslaşmış sahə, profil üzrə olan muzey obyektlərini öyrənməkdir.

Yetişməkdə olan gənc nəslin formalaşmasında, onların əxlaqi-tərbiyəvi, estetik hisslərinin inkişafında mühüm rol oynayan muzey eksponatlarından əsas yeri incəsənət əsərləri tutur. Azərbaycan ədəbiyyatı, mədəniyyəti və incəsənətinin təqdimi təsviri sənət əsərləri içərisində heykəltəraşlıq nümunələri vasitəsilə daha mükəmməl olur. Bu cəhətdən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin heykəltəraşlıq fondunun elmi-tədqiqat işinə cəlb olunması muzeylərin funksional fəaliyyətinin müəyyənləşməsi istiqamətində aktuallıq kəsb edir.

Tarixi mədəniyyət abidələrinin təbliği, qorunması və öyrənilməsini özünün beynəlmiləlçilik borcu sayan Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində muzeyşünaslıq və ədəbiyyatşünaslıq istiqamətində xeyli tədqiqatlar aparılır və diqqətəlayiq işlər görülür. Onu qeyd etməyimiz mütləqdir ki, Nizami muzeyi daxil olmaqla bütün muzeylərdə gedən iş proseslərinin, onların fəaliyyətinin tənzimlənməsinin qanunvericilik tərəfindən idarə olunması çox sevindirici haldır. Bu gün sənətşünaslıq, muzeyşünaslıq, mədəniyyətşünaslıq sahəsində qəbul edilmiş qanunlar, verilən sərəncamlar fərqli elmlərin bir-birinə inteqrasiyasına, inkişafına geniş imkanlar açır.

Qeyd edilənləri nəzərə alaraq dissertasiya mövzusunun aktuallığını aşağıdakı konkret amillərlə izah etmək olar:

- Nizami muzeyi ekspozisiyasında nümayiş olunan heykəltəraşlıq nümunələri muzey mühiti vasitəsilə yaradıcı idrakla tədris prosesi arasındakı qarışılıqlı əlaqəni izləmək baxımdan mühüm rol oynayır;

- Ekspozisiyasının təşkilinə gəldikdə isə dərketmənin keyfiyyətinin daha yüksək olması üçün Nizami muzeyində ardıcıllıq prinsipinə əsaslanması başlıca məqamlardandır. Bir dövrün özundən əvvəlki dövrə söykənməsi, rəssamlığın memarlığa, memarlığın heykəltəraşlığa, ədəbiyyata, ədəbiyyatın musiqiyə nüfuzu, qarışılıqlı əlaqəsi vahid və zəngin ekpozisiya yaradılmasına zəmin verməsi bir neçə elmi kompleks halda öyrənməyə əsas verir;

- Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələri, mədəniyyət xadimlərinin həyat və yaradıcılıqlarını özündə əks etdirən portret-heykəllər, bioqrafik məqamları əks etdirən müxtəlif ölçülü tablolar öz spesifikliyi, unikallığı ilə seçilir. Həmçinin bu əsərlərin bəziləri heç bir mənbədə işıqlandırılmadığı üçün onların kompleks halda, ətraflı tədqiq olunması dissertasiya işində vacib məsələ kimi qarşıya qoyulmuşdur;

- Nizami muzeyinin tarixi simaların xatirəsinə abidə-komplekslər ucaldılmasına, xatirə muzeylərinin yaradılmasında bu gün də əvəzsiz xidməti olmuşdur. İctimai xadim Əlimərdan bəy Topçubaşovun məzar daşının ölkəyə gətirilməsi, Sen-Klu qəbiristanlığında ictimai xadimin yeni qəbirüstü abidəsinin salınması, Sloveniyada əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin xatirə muzeyinin açılması, Azərbaycan Respublikası Hərbi Prokurorluğu nəzdində Memorial Soyqırım muzeyinin mövzu-ekspozisiya planının tərtibi kimi təqdirəlayiq xidmətlər tarixi-psixoloji tutumlu mövzuların inkişafına müsbət təsir göstərdiyi üçün tədqiqat işində ayrıca paraqrafda işlənməsi xüsusi əhəmiyyət daşıyır;

- Tədqiqat işində Nizami muzeyinin heykəltəraşlıq fondunda qorunan ədəbiyyat və mədəniyyət nümayəndələrinin abidələri Azərbaycan və xarici ölkələrin ərazilərində, muzeylərində onlara

qoyulan əsərlərlə müqayisəli işlənməsi dissertasiyanın aktuallığını artırır.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə isə S.A.Əmirxanov, İ.H.Hüseynovun, “Muzeyşünaslıq”[1], İ.H.Hüseynovun “Dünya muzeyləri və tarixi mədəniyyət abidələri”[2], Azərbaycanda yaradılmış “Muzey işi üzrə elmi-metodiki kabinə”yə 1995-ci ilə qədər rəhbərlik etmiş V.Y.Qarnikin “Очерки истории музейного дела в СССР”[3], Y.M. Eyvazovanın “Abidəşünaslıq”[4] və “Muzey ekspozisiyası”[5] kitablarında, E.H. Məlikova-Qurbanovanın “Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası” kitabında[6], “Azərbaycan bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu”[7] dissertasiyasında muzey işi araşdırılmışdır.

Xarici müəlliflərin kitablarından А.И. Михайловская “Музейная экспозиция (Организация и техника)”[8], Шулепова Э.А. “Основы музееведения: учебник”[9], Лашкевич Л. В. “Актуальные проблемы фондовой работы музеев”[10] kimi

---

[1]Əmirxanov S.A., Hüseynov İ.H. Muzeyşünaslıq: dərslik / S.A.Əmirxanov, İ.H.Hüseynov ─ Bakı: Mars-Print,─ 2002.─ 448 s.

[2]Hüseynov İ.H. Dünya muzeyləri və tarixi mədəniyyət abidələri: ali məktəblər üçün dərs vəsaiti / İ.H.Hüseynov.─ Bakı: Mars Print, ─ 2008.─ 295s.

[3]Гарник В.Я. Очерки истории музейного дела в СССР / В.Я.Гарник.─ Москва: Советская Россия, ─ 1971.─ 291с.

[4]Eyvazova Y. M. Abidəşünaslıq: monoqrafiya.─ Bakı: ADMİU, ─ 2017.─ 236 s.

[5]Eyvazova Y.M. Muzey ekspozisiyası: dərslik. Bakı: ADMİU, ─ 2018.─ 320 s.─ şəkilli.

[6]Məlikova-Qurbanova E. Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası: dərslik / E.Məlikova-Qurbanova.─ Bakı: ─ 2017.─ 239 s.

[7]Qurbanova E. H. Azərbaycanda bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyası) ─ Bakı, 1998.─ 154 s.

[8]Михайловская А.И. Музейная экспозиция (Организация и техника) / А.И. Михайловская.─ Москва: Советская Россия, ─ 1964. ─ 409 с.

[9]Шулепова Э.А. Основы музееведения: учебник / Э.А.Шулепова.─ Москва: Эдиториал УРСС, ─2005.─ 504 с.

[10]Лашкевич Л. В.Актуальные проблемы фондовой работы музеев / Л.В.Лашкевич.─ Москва: ─ 1978.─ 205 с.

əsərlərdə muzeyşünaslıq, muzeylərin fəaliyyət istiqamətləri haqqında elmi məlumatlar yer almışdır.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktorlarından Əziz Mirəhmədovun "Muzeyimizin tarixindən", akademik Bəkir Nəbiyevin "Hikmət və gözəllik xəzinəsi" adlı məqalələrində və akademik Rafael Hüseynovun "Söz məbədi" kitabında[11] Nizami muzeyinin yaranması və fəaliyyəti haqqında məlumatlar öz əksini tapır.

Nizami muzeyinin 60 illik yubileyi münasibətilə fil.ü.e.d., professor X.B.Bəşirli və S.H.Hüseynovanın redaktorluğu ilə "İncəsənət fondu" kataloqu tərtib olunmuşdur ki, nəfis tərtibatlı bu kitabın[12] "Təsviri sənət" bölməsində görkəmli rəssam və heykəltəraşların muzeydə nümayiş olunan əsərlərinin təsvirləri verilmişdir. Həmçinin muzeydə Cəlil Məmmədquluzadənin (1996), Xurşidbanu Natəvanın, Mirzə Fətəli Axundovun (1997), Hüseyn Cavid, Yusif Vəzir Çəmənzəminli, Ömər Faiq Nemanzadə (2000), Nərimanov Nərimanov, Əbdürrəhimbəy Haqverdiyev (2000) xatirə fondlarının kataloqları işıq üzü görmüşdür. Bu kataloqlarda görkəmli simaların həyat və yaradıcılıqlarını əks etdirən materiallar ─ xatirə əşyaları, orijinal fotolar, əlyazmaları ilə yanaşı təsviri sənət ustalarının həmin dahilərə həsr etdikləri rəsm əsərləri və heykəltəraşlıq nümunələri haqqında məlumatlar da muzey dili ilə geniş ictimaiyyətin nəzərinə çatdırılmışdır.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin elmi əsərlərində (1961-2003), 2004-cü ildən etibarən muzeydə mütəmadi olaraq nəşr olunan "Risalə" elmi araşdırmalar jurnalı, "Xəzinə" kataloqlar toplusu, "Məclis" mərasimlər toplusunda muzeyin fondunun və ekspozisiyasının yaranması, fəaliyyəti və muzeyin eksponatları haqqında maraqlı məqalələr dərc edilmişdir.

Nizami muzeyinin heykəltəraşlıq fondunda mühafizə olunan heykəltəraşlıq nümunələri haqqında da bir neçə tədqiqat işlərində,

---

[11]Hüseynov R.B. Söz məbədi / R.B.Hüseynov.─ Bakı: Araz,─ 2009.─ 49s.

[12]Azərbaycanın elm və mədəniyyət xadimləri. Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyevin xatirə fondu: kataloq / tərt.ed. X.B.Bəşirova, S.H.Hüseynova. Bakı: ─ 2005.─ 102 s.

elmi əsərlərdə, monoqrafiyalarda müəyyən qədər məlumatlar verilmişdir. Sənətşünas C.Novruzovanın “Монументальная скульптура Советского Азербайджана”[13] tədqiqat işində sovet monumental heykəltəraşlığını araşdırarkən muzey fasadında olan heykəllər və Nizami yaradıcılığı ilə heykəllərin müəllifləri haqqında fikirlər qeyd olunmuşdur.

Sənətşünaslar N.Həbibov, P.Hacıyev, N.Milaşevskaya, C.Novruzova “Очерки изобразительного искусства Советского Азербайджана: живопись, скульптура, графика”[14]kitabında, sənətşünas Cəmilə Novruzova “Фуад Абдуррахманов”[15], sənətşünas G.A.Qacarın “Ömər Eldarov[16], N.V. Voronovun “Омар Эльдаров”[17] kitablarında onların yaradıcılıqları haqqında ətraflı məlumat verilmişdir.

Sənətşünaslar K.Ç.Kərimov, R.S.Əfəndiyev, N.İ.Rzayev, N.D.Həbibov “Azərbaycan incəsənəti”[18] monoqrafiyasında incəsənətin qədim dövrlərdən Sovet dövrünə qədər olan yaranma və təşəkkül tarixi haqqında məlumatlarda Nizami muzeyinin yaranması ilə bağlı əsası qoyulan heykəltəraşlıq nümunələrinin bəzilərinin inkişaf prosesi təhlil olunmuşdur. Sənətşünas Zamanov N.K. “Сюжеты «Хамсэ» Низами в искусстве Азербайджана”[19] adlı tədqiqat işində “Xəmsə” sujetli təsviri sənət əsərləri içərisində heykəltəraşlıq nümunələri də qismən araşdırılmışdır. Sənətşünaslıq

[13]Новрузова Д.Г. Монументальная скульптура Советского Азербайджана: / диссертация кандидата искусствоведения наук) / ─ Баку, 1968.─ 215 с.

[14]Очерки изобразительного искусства советского Азербайджана: живопись, скульптура, графика / Н.Габибов, П.Гаджиев, Н.Милашевская, Д.Новрузова. ─Баку: ─ 1960.─ 144 с.

[15]Новрузова Д. Фуад Абдуррахманов: скульптура / Д. Новрузова.─ Москва: Советский художник, ─ 1986.─ 108 с.

[16] Qacar G.A. Ömər Eldarov: heykəltəraşlıq / G.A.Qacar.─ Bakı: ─ 2005.─ 290 s.

[17]Воронов Н.В. Омар Эльдаров / Н.В.Воронов.─ Москва: Советский художник, ─ 1990.─ 144 с.

[18]Azərbaycan incəsənəti: monoqrafiya // Bakı: İşıq,─ 1992.─ 344 s.

[19]Заманов Н.К. Сюжеты «Хамсэ» Низами в искусстве Азербайджана. / автореф диссертации кандидата искусствоведения наук) / ─ Баку: Элм, ─ 1973.─ 30 с.

üzrə fəlsəfə doktoru Vüsal Bağırovun "Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı (XX əsr)"[20] adlı tədqiqat işini xüsusi qeyd etmək lazımdır. Monoqrafiyada kiçik formalı heykəltəraşlığın inkişafı geniş və sistemli şəkildə araşdırılmış, Nizami Gəncəvi yaradacılığına həsr edilmiş heykəltəraşlıq nümunələrindən də bəhs edilmişdir.

Sənətşünas Rafiq Quliyevin "Azərbaycanda təsviri sənətində tarix və şəxsiyyət" kitabında [21], sənətşünas Ziyadxan Əliyevin "XX əsr Azərbaycan heykəltəraşlığının inkişaf mərhələləri (1920-1991)" kitabında[22] və ayrı-ayrı sənətkarlar haqqında yazdığı məqalələrində 2013-cü ildə Bakıda "Sərvət" toplusu altında çap olunmuş Azərbaycan rəssam və heykəltəraşlarının yaradıcılığından bəhs edən albomlarda onların yaradıcılıqları, həyatları və əsərləri haqqında maraqlı faktlar verilmişdir.

Bundan başqa sənətşünas Samir Sadıqovun "Muzeyin eyvanında yerləşən altı heykəlin tarixi" məqaləsində, sənətşünaslıq üzrə fəlsəfə doktoru dərəcəsi almaq üçün 2013-cü ildə müdafiə etdiyi "Tokay Məmmədovun yaradıcılığının bədii xüsusiyyətlərinin Azərbaycan heykəltəraşlığında əhəmiyyəti"[23], Fərman Qasımovun 2014-cü ildə müdafiə etdiyi "Xalq rəssamı Natiq Əliyevin yaradıcılığı müasir Azərbaycan heykəltəraşlığı kontekstində"[24] adlı dissertasiya işlərində həmin müəlliflərin Nizami muzeyinin

---

[20]Bağırov V. Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı (XX əsr): /sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyası) / ─ Bakı, 2004.─ 160 s.

[21]Quliyev R. Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət / R.Quliyev.─ Bakı: Oka-ofset, ─2013.─ 382 s.

[22] Əliyev Z. XX əsr Azərbaycan heykəltəraşlığının inkişaf mərhələləri (1920-1991): dərs vəsaiti / Z.Əliyev.─ Bakı: Elm və təhsil, ─ 2016.─ 200 s.

[23]Sadıqov S. Q. Tokay Məmmədovun yaradıcılığının bədii xüsusiyyətlərinin Azərbaycan heykəltəraşlığında əhəmiyyəti: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyası) / ─ Bakı, 2013.─ 129 s.

[24]Qasımov F.Y. Xalq rəssamı Natiq Əliyevin yaradıcılığı müasir Azərbaycan heykəltəraşlığı kontekstində: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyası) / ─ Bakı, 2014.─ 132 s.

heykəltəraşlıq fondunda olan heykəlləri haqqında qısa məlumat verilmişdir.

Əlimərdan bəy Topçubaşovun məzar daşının Azərbaycana gətirilməsi və yeni qəbirüstü abidə ilə əvəzlənməsi haqqında fikirlər akademik Rafael Hüseynovun "Cümhuriyyət qurucularına borcları qaytarmaq məqamıdır!"[25], fil.ü.e.d., prof. Nadir Məmmədlinin "Parisdə Azərbaycanın rəmzi ünvanı"[26] məqalələrində işıqlandırılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyinin heykəltəraşlıq fonduna daxil həcmli (və ya dəyirmi) və relyef xarakterli heykəlləridir. Həmçinin Nizami muzeyinin təşkilatçılığı ilə ölkə xaricində fəaliyyət göstərən memoriallar və muzeylərin heykəlləridir. Tədqiqatın predmeti Nizami muzeyinin ədəbiyyat nümunələri fonunda heykəltəraşlıq nümunələrinin muzeyşünaslıq, sənətşünaslıq, ədəbiyyat, mədəniyyət sahəsində təbliği işinin öyrənilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi Nizami muzeyinin heykəltəraşlıq fondunun Azərbaycan ədəbiyyatının və mədəniyyətinin təqdimində daşıdığı əhəmiyyəti tədqiq etmək və həmin əsərlərin vasitəsilə ümumilikdə muzey fond və ekspozisiyalarının inkişafına, zənginləşməsinə heykəltəraşlıq nümunələrinin göstərdiyi təsirini aşkara çıxarmaqdır. Bu məqsəddən çıxış edərək tədqiqat işi qarşısına aşağıdakı vəzifələri qoyur:

- Nizami muzeyinin fond, ekspozisiyası və arxivinin yaranması və təşəkkül tarixinin araşdırılmasını;

- Yalnız elmi məzmunu deyil, zahiri gözəlliyi bütöv bir sənət olan muzeyin heykəltəraşlıq və memarlıq sintezinə uyğunluğunun dəyərləndirilməsini;

---

[25]Cümhuriyyət qurucularına borcları qaytarmaq məqamıdır! - Akademikdən maraqlı təkliflər: [elektron resurs]/ http://modern.az/az/news/161497#gsc.tab=0 (İstifadə olunma tarixi: 15.06.2018)

[26]Məmmədli N. Parisdə Azərbaycanın rəmzi ünvanı // Filologiya məsələləri. ─ Bakı: ─ 2017. №13,─ s. 366-374

- Azərbaycan xalqının öz tarixinə və mədəniyyətinə hörmətini, dəyərini Nizami muzeyinin heykəltəraşlıq və rəssamlıq əsərləri vasitəsilə sübutunu;

- Şəhər mühitində ədib və mədəniyyət xadimlərinin abidələrinin Nizami muzeyində davametdirilmə ənənəsinin tədqiqini;

- Muzeydə nümayiş olunan portret və portret-heykəllərin Nizami muzeyinin ümümazərbaycan ədəbiyyat muzeyinə çevrilməsində daşıdığı əhəmiyyətinin müəyyənləşdirilməsini;

- Müxtəlif dövlərdə yaşayıb-yaradan yazıçı, şair və mədəniyyət xadimlərinin heykəllərinin işlənmə xüsusiyyətlərinin təhlil edilməsini;

- Nizami muzeyinin fəaliyyəti ilə ölkə xaricində yaradılan memorialların və xatirə muzeyi heykəllərinin mədəni, siyasi, ədəbi əlaqələrin qurulmasında rolunun aşkara çıxarılmasını.

**Tədqiqat metodları**. Dissertasiya işində təhlil və sintez, nəzəri ümumiləşdirmə, sistemli yanaşma, tarixilik prinsipi kimi elmi metodlar rəhbər tutulmuşdur. İş prosesində müsahibələr və sorğular aparılmış, muzey fondlarının sənədləri muzeyşünaslıq istiqamətində təhlil edilmiş, rəsmi statistik materialların analizi verilmişdir. Tədqiqat zamanı Nizami muzeyinin fondunu zənginləşdirən heykəltəraşlıq nümunələri ilə həm Azərbaycan, həm də xarici ölkələrin ərazisində qoyulan abidələr arasında aparılan müqayisəli təhlil, kompleks yanaşma da əsas metodoloji əhəmiyyətə malikdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat zamanı müdafiəyə çıxarılan müddəalar bunlardır:

- Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin fond, arxivi və ekspozisiyasının yarandığı tarixdən son dövrlərə qədər keçdiyi ömür yolunun tarixi mərhələlərlə tədqiqi;

- Qüdrətli söz ustalarının obrazları və əsərlərinə müraciət olunan heykəltəraşlıq nümunələrinin bədii irsimizin üzə çıxarılması, müasir təsviri sənətin inkişafında oynadığı rolunun araşdırılması;

- Şəhər mühitində ucaldılan ədib və mədəniyyət xadimlərinin abidələrinin Nizami muzeyində elmi konsepsiya və bədii-memarlıq həll prinsipinə uyğun təşkilinin öyrənilməsi;

- Nizami muzeyinin ümumazərbaycan ədəbiyyat muzeyinə çevrilməsində ədib və mədəniyyət xadimlərinin portret və portret heykəllərinin işlənilməsinin səciyyəviliyi;

- Nizami muzeyinin xidməti ilə ölkə xaricində memoriallar və muzeylərdəki heykəllərin yaradılmasının Azərbaycan ədəbiyyatı və mədəniyyətinin təbliğindəki əhəmiyyəti.

**Tədqiqatın elmi yeniliyi.** İlk dəfə olaraq Nizami muzeyinin heykəltəraşlıq fondu tədqiqat işi kimi araşdırılır və qarşıya qoyulan problemlərə tədqiqatçının yeni yanaşması təqdim olunur. İşin elmi yeniliyi aşağıdakı konkret elmi müddəalarda öz əksini tapmışdır:

- Nizami muzeyinin heykəltəraşlıq fondu muzeyşünaslıq aspektdən ilk dəfə tədqiq olunmuşdur;

- Azərbaycan muzeylərinin ayrı-ayrı fondlarına daxil olan bölmələr sənətşünaslıq, muzeyşünaslıq, təsviri sənət, dekorativ-tətbiqi sənət istiqamətində işlənsə də heykəltəraşlıq fondu bu aspektdə ilk dəfə işlənmişdir;

- İlk dəfə olaraq Nizami muzeyinin fondunun, ekspozisiya və arxivinin yaranması, təkamülü, fondun bölmələri, ekspozisiya zalları haqqında geniş məlumatlar verilmişdir;

- Dissertasiyanın digər üstünlüyü və yeniliyi ondadır ki, muzey və burada nümayiş olunan heykəllər haqqında müəyyən tədqiqat işlərində məlumat verilsə də, ilk dəfə muzeyin arxiv sənədlərinə, fond materiallarına istinadlar verilmiş, orijinal mənbə kimi tədqiqata cəlb edilmişdir;

- Muzeyin heykəltəraşlıq fondu araşdırılarkən heykəltəraşların indiyə qədər heç bir tədqiqat işlərində, elmi və publisistik məqalələrində, kitablarda işıqlandırılmayan əsərlər tədqiq olunmuş, muzey eksponatı kimi dəyərləri üzə çıxarılmışdır;

- Nizami muzeyinin təşəbbüsü ilə ölkə xaricində Azərbaycanla bağlı fəaliyyət göstərən memorial və xatirə muzeylərindəki heykəltəraşlıq nümunələri haqqında ətraflı məlumatlar verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın müddəalarından, nəzəri və praktiki əhəmiyyət kəsb edən nəticələrindən muzeyşünaslıq, təsviri sənət, sənətşünaslıq, mədəniyyətşünaslıq sahəsi üzrə fəaliyyət göstərən tədqiqatçılar və

mütəxəssislər tərəfindən, eləcə də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının, Azərbaycan Turizm və Menecment Universitetinin müvafiq kurslarının tədrisində, mövzu ilə bağlı mühazirələrin hazırlanmasında, həmçinin muzeyin izahat mətnində istifadə oluna bilər. Dissertasiya işində həmçinin ölkə xaricindəki memoriallar, abidələr, muzey heykəltəraşlığı haqqında izahatlar verildiyi üçün xarici vətəndaşlara da bu sahədə elmi axtarışların aparılması üçün zəmin ola bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas nəzəri müddəaları, başlıca elmi yenilikləri müəllifin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi məcmuələrdə, eyni zamanda xarici ölkələrin müvafiq elmi nəşrlərində dərc etdirdiyi müxtəlif məqalələrində, onun bir sıra Beynəlxalq və Respublika səviyyəli elmi konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin "Mədəni irs və mənbəşünaslıq" şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları və nəticələri həmin şöbənin iclaslarında müzakirə olunmuşdur.

**Dissertasiyanın strukturu və həcmi**. Giriş 17192 şərti işarə, üç fəsil (birinci fəsil: üç paraqraf ─ 94055 şərti işarə; ikinci fəsil: 2 paraqraf ─ 85327 şərti işarə; üçüncü fəsil: 2 paraqraf ─ 61043 şərti işarə), nəticə 5458 şərti işarə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Mövzunu əks etdirən şəkillər ayrıca cilddə (dissertasiyaya əlavədə) təqdim edilir. Dissertasiyanın ümumi həcmi 263449 şərti işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Nizami muzeyi fondlarının və ekspozisiyasının təşəkkül tarixi"** adlı I fəsli üç paraqrafdan ibarətdir. "**Nizami Gəncəvinin 800 illiyi ilə əlaqədar Nizami**

**muzeyinin fond, arxiv və ekspozisiyasının təməlinin qoyulması"** adlı I paraqrafda çoxəsrlik Azərbaycan ədəbiyyatı ilə bağlı qiymətli materialların qorunub saxlandığı Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin fond, arxivi və ekspozisiyasının yarandığı tarixdən son dövrə qədər keçdiyi ömür yolu tarixi mərhələlərlə tədqiq edilmişdir. Muzeyin binasının yaranma tarixinə nəzər salınaraq müəyyən olunmuşdur ki, 1856-1868-ci ildə Bakı quberniyasının baş arxitektoru, memar Qasım bəy Hacıbababəyovun layihəsi əsasında karvansara binasına 1860-cı ildə bir qat əlavə olunmuşdur. 1914-cü ildə mülki mühəndis Aleksandr Nikitin karvansaranın sahibi Hacı Hacağa Dadaşovun sifarişi ilə bir layihə hazırlamış, 1915-ci ildə karvansara "Metropol" hotelinə çevrilmiş, iki mərtəbənin üstünə bir qat da əlavə olunmuşdur. Nəhayət binanın yeni formalı dəyişikliyinin təməli 3 may 1939-cu ildə qoyulur.[27] 1939-cu il noyabrın 1-də, Xalq Komissarlığı Şurasının (XKŞ) 4972 saylı qərarı ilə noyabrın 10-dək Respublika Həmkarlar İttifaqına məxsus binadan böyük zalı və bir otağı Nizami Gəncəviyə həsr edilən, daimi fəaliyyət göstərəcək sərgiyə ayırmaq qət edilir.[28]

1939-cu ildə Nizami muzeyi ilə eyni vaxtda onun əsas bazası olan, çoxplanlı və hərtərəfli fəaliyyətini müəyyənləşdirən fondu yaranmışdır. O zaman fondun yeganə orijinal eksponatı Nizami Gəncəvinin qəbrindən tapılmış parça və Nizami "Xəmsə"sinin XV əsrə aid əlyazması idi. 17 dekabr 1939-cu ildə Nizami muzeyində eksponatların ilk inventar kitabı yaradıldı. Fondun ilk eksponatı kimi Yüzbaşovdan alınmış Nizaminin "İsgəndərnamə" poemasına çəkilmiş üç miniatür olmuşdur.

Nizami Gəncəvinin dövrü, həyatı və yaradıcılığını əks etdirən xatirə muzeyi 1945-ci ilin may ayında, Böyük Vətən müharibəsinin qələbə günlərində açıldı. Nizami muzeyinin ilk ekspozisiya planının hazırlanmasında Həmid Araslı, Mübariz Əlizadə, İshaq Cəfərzadənin

---

[27]Hüseynov R.B. 60 ilin 60 anı yaxud Qədim və orta əsrlər şöbəsinin muzeydəki ömür tarixçəsi //Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyinin əsərləri,– 2000. № 8, – s.19-27.

[28]AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Arxivi: Muzeyin elmi-tədqiqat hesabatı: 1945-1970-ci illər. F.5, siy. 107, iş 2, v. 4-5

böyük xidmətləri olmuşdur. Bu muzeyin əsasında bütöv ekspozisiyası 1967-ci ildə başa çatan Azərbaycan ədəbiyyatının tarixini əks etdirən bugünkü muzey yaradılmışdır. 1966-cı ildə xüsusi qərarla fondun nəzdində “Elmi arxiv” yaradılır. 2004-cü ildə Nizami muzeyində əsaslı şəkildə təmir və yenidənqurulma işlərinə başlanması onun həyatında əlamətdar hadisə oldu.

Bu paraqrafda muzey fondunun bölmələri, ekspozisiya zalları, filialları, fəaliyyət istiqaməti haqqında əhatəli məlumatlar verilmiş, həmçinin bəzi yerli və xarici muzeylərlə müqayisəli şəkildə işıqlandırılmışdır. Fondun əsas bölmələrindən olan “İncəsənət” fonduna daxil olan heykəltəraşlıq bölməsi tədqiqata cəlb olunaraq təxminən 170-ə yaxın heykəltəraşlıq nümunələrindən ibarət olduğu araşdırılmışdır. Bu bölməyə təxminən 56 heykəl, 70 büst, 19 barelyef, 3 qorelyef, 15 fiqur daxildir.

I fəslin **“Muzeyin fasadında ucaldılan ədib heykəlləri və onların Nizami abidəsi ilə səsləşməsi”** adlı II paraqrafında muzeyin yarandığı gündən binasının memarlıq sahəsində, interyerinin bədii – estetik həlli üzrə Azərbaycan heykəltəraşlığında yeni bir istiqamətin yaratması qənaətinə gəlinmişdir. Belə ki, 1939-cu il mayın 3-də Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyini hazırlamaq və keçirmək haqqında qərarın qəbul edilməsi Azərbaycan heykəltəraşlığında ictimai rezonans doğuran mühüm hadisələrindən olmuşdur. Binanın simasını müəyyənləşdirəcək heykəllər 1943-cü ildə hazır olaraq, memarlar Sadıq Dadaşov və Mikayıl Hüseynovun layihəsi ilə binanın Nizami heykəlinə tərəf planlaşdırılmış səmtində, tağların altında yerləşdirilmişdir.

Muzeyi bayır tərəfdən bəzəyən bu altı heykəl adları dillər əzbəri olan dahilərimizin – Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundov, Xurşidbanu Natəvan, Cəlil Məmmədquluzadə və Cəfər Cabbarlının heykəlləridir. Bu abidələrin müəllifləri Fuad Əbdürrəhmanov, Cəlal Qaryağdı, Pinxos Sabsay, Yelizaveta Tripolskaya, Yevgeni Zaxarov, S.Klyaçkindir.

Bu mənzərəni tamamlayan ən əsas məqam tağlar altında sıra ilə düzülən dahilərin qarşısında öz əzəməti ilə diqqəti çəkən Nizaminin dayanmasıdır. Sanki dahinin onlara mühazirə oxuduğunu bizə zənn

etdirən bu abidənin yeri həqiqətən çox böyük ustalıqla seçilmişdir. XKŞ 1296 saylı qərarı ilə Nizaminin portretini işləmək üçün rəssamlar Kamil Xanlarov, Abbas Kazımov, Tağı Tağıyev, Mürsəl Nəcəfov, Boris Semyonov, Reyhan Topçubaşova və Qəzənfər Xalıqovu cəlb etməklə İncəsənət İşləri İdarəsinə qapalı müsabiqə keçirmək üçün icazə verilir.

Müsabiqəyə göndərilmiş xeyli əsər arasında görkəmli rəssam Qəzənfər Xalıqovun Nizami portreti yer tutaraq mükafata layiq görüldü. Rəssam miniatür sənətimizdəki surətlərin geyim elementindən, görünüş tərzindən, eləcə də şairin öz əsərlərindən irəli gələn faktorlardan yerli-yerində istifadə edə bilmişdir. *"Nizaminin obrazı Azərbaycan və dünya xalqları tərəfindən məhz Qəzənfər Xalıqovun yaratdığı Nizami kimi qəbul edildi və portret dahi işairin "Xəmsə"si kimi ürəkləri fəth elədi".*[29]

1947-ci ilin yanvarında Bakıda Nizami Gəncəvinin monumental abidəsinin ucaldılması ilə əlaqədar inşaat işlərinin bərpası və sürətlə aparılması barədə ümumittifaq hökumət xüsusi sərəncam verdi. 1949-cu il aprelin 30-da abidənin təntənəli açılışı oldu.

Nizami muzeyi və qarşısında ucalan Nizami abidəsi ilə memar və heykəltəraşlar qarşılarında qoyulan məsələnin həllinə nail ola bilmiş, tikilinin ümumi görünüşünün tamamlanmış ideyasını yarada bilmişlər. Həmin abidələrin yaradılması ilə Azərbaycan milli heykəltəraşlığının əsası qoyulmuş, gənc heykəltəraşlar bu ənənədən bəhrələnərək yeni istiqamət tutmuş oldular.

I fəslin **"Nizaminin həyat və yaradıcılığı ilə əlaqədar hazırlanmış heykəltəraşlıq nümunələri"** adlı III paraqrafında muzey fondunda və ekspozisiyasında Nizami Gəncəvinin həyat və yaradıcılığı ilə bağlı heykəltəraşlıq nümunələri təhlil edilmiş, muzey əhəmiyyəti haqqında araşdırmalar aparılmışdır. Nizami ənənəsi Azərbaycan poeziyasının inkişafına məna və genişlik verən zəruri

---

[29]İbrahimov Ə. Nizaminin heykəli haqqında düşüncələr // Ədəbiyyat və İncəsənət.— 1990, 12 oktyabr. № 4 (2435),—s.15-18.

ehtiyac olduğu kimi, Nizami obrazı və yaradıcılığı Azərbaycan təsviri sənətinin zənginləşməsinə təkan verən həqiqi və estetik vasitəyə çevrilmişdir.

Muzeydə Nizami obrazını əks etdirən Pinxos Sabsayın (1941), Cəlal Qaryağdının (1941), Yevgeni Zaxarovun (1941), Fuad Əbdürrəhmanovun (1947), Tokay Məmmədovun (1953), Aftandil Məlikovun (2016) Nizami Gəncəviyə aid büst və heykəllərinə, Münəvvər Rzayevanın "Nizami Gəncəvi və Məhsəti Gəncəvi" (1995) Nəcəfqulu İsmayılovun "Nizami və Xaqani" adlı qalvanik barelyeflərinə rast gəlinir.

Görkəmli heykəltəraş Fuad Əbdürrəhmanov və xalq rəssamı Qəzənfər Xalıqovun məharətlə işlədikləri medalyonlar da öz nəfis tərtibatı ilə tarixiliyini saxlamışdır. Görkəmli şairin "Xəmsə"sinə daxil olan əsərlərdən ayrı-ayrı səhnələri əks etdirən bu barelyeflər gəcdən hazırlamışdır. Şairin yaradıcılığı ilə bağlı Rasim Xələfovun "Nizami həyat yoldaşı Afaq və oğlu Məhəmməd ilə", Zivər Məmmədovun "Bəhram və çoban", Cəlal Qaryağdının "Fərhad Bisütun dağını yararkən", Timçenkonun "Leyli və Məcnun" Həyat Abdullayeva çinidən yaratdığı "Yeddi gözəl" əsərləri araşdırılmışdır. Nizami muzeyinin ekspozisiyasında nümayiş olunan Nizami Gəncəvinin həyatı ilə bağlı incəsənət abidələri muzey mühiti vasitəsilə yaradıcı idrakla tədris prosesi arasındakı qarışılıqlı əlaqəni özündə cəmləşdirir.

Birinci fəslin əsas nəticələrini özündə əks etdirən müddəalar elmi mətbuatda nəşr olunmuş məqalələrdə[30] öz əksini tapmışdır. Dissertasiyanın **"Nizami muzeyinin ümumazərbaycan ədəbiyyatı muzeyinə çevrilməsi və genişlənməsinin heykəltəraşlıq**

---

[30] Həsənova G.S. Nizami muzeyinin heykəltəraşlıq fondu // Risalə. Araşdırmalar toplusu, ─2014. №10,─ s. 143-149; Həsənova G.S. Nizami muzeyində "Xəmsə" sujetlərinin heykəltəraşlıq istiqaməti // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin elmi əsərləri,─ 2016. №2, ─ s. 39-45; Hasanova G.S. Presentation of the personality and heritage of Nizami through the sculptural patterns of Nizami museum // Українська культура: минуле, сучасне, шляхи розвитку: наук. зб. Напрям: Культурологія. Вип. 29.─ Рівне: РДГУ, ─2018.─ p. 126-130.

**istiqaməti”** adlı II fəsli iki paraqrafdan ibarətdir. **Şəhər mühitində ədib və mədəniyyət xadimlərinin abidələrinin Nizami muzeyində davam etdirilmə ənənəsi”** adlanır.

Muzeyşünas alim Elfira Qurbanovanın qeydlərinə görə muzeylərin funksional fəaliyyətində mühüm istiqamətlərdən biri də incəsənətin təbliği və incəsənət vasitəsilə tərbiyə məsələsidir. Mədəniyyət və maarif işinə aid ədəbiyyatda bu istiqamət estetik tərbiyə işi adlandırılır. Təsviri sənətin qollarından olan heykəltəraşlıq sahəsi təkcə zahiri oxşarlığı deyil, təsvir olunan obrazın fərdiliyini, daxili mahiyyətini açıb göstərir. Başqa mədəniyyət müəssisələrindən fərqli olaraq muzeylərin bu sahədə apardığı iş daha səmərəli və təsirlidir.

Tarixi dövrlərdə yaşayıb-yaradan ədəbi şəxsiyyətlərə və onların yaradıcılığına həsr edilmiş təsviri sənət əsərlərinə Azərbaycanda və ölkə xaricindəki parklarda, memarlıq abidələri və binaların qarşısında rast gəlinir. Həmin heykəltəraşlıq abidələrinin bəzilərinin orijinalları, eyni kompozisiya əsasında hazırlanmış formaları Nizami muzeyinin fondunun incəsənət bölməsində qorunur, daimi və müvəqqəti ekspozisiyasında nümayiş olunur. Bu paraqrafda heykəltəraşlıq nümunələrinin Nizami muzeyinin fondu və ekspozisiyası ilə səsləməşi iki istiqamətdə qruplaşdırılmışdır:

1. Azərbaycan ərazisində ucaldılan abidələr
2. Ölkə xaricində ucaldılan abidələr

Tarixi mənbələr sübut edir ki, XX əsrdə Azərbaycan heykəltəraşlığının sovet incəsənətinin tərkib hissəsi olduğunu nəzərə alsaq, milli maraqlara xidmət edən mövzuların bədiiləşdirilməsi ilkin dövrlərdə çox çətin idi. 1920-ci illərdən etibarən monumental heykəltəraşlıq sahəsində ilk addımlar atılmış və şəhər mühitində heykəl yerləşdirilməsi sahəsində təcrübələr aparılmışdır.

Şəhərdə qoyulan ilk heykəl ─ M.Ə.Sabirin heykəlinin müəllifi Yakov Keylixisdir. 1922-ci ilin aprel ayında açılışı olan abidənin qoyulmasının təşəbbüskarları Dadaş Bünyadzadə, Hənəfi Zeynallı,

Mirzə Cəlil, Nəriman Nərimanov, Tağı Şahbazi idi.[31] Əsərin ömrü qısa olmuş, 1958-ci ildə Cəlal Qaryağdının tuncdan hazırladığı möhtəşəm abidə ilə əvəz edilmişdir.

Bu paraqrafda ölkə ərazisində ucaldılmış Xurşidbanu Natəvan, Məhsəti Gəncəvi, Mikayıl Müşfiq, Zivər bəy Əhmədbəyov, Yusif Məmmədəliyev, Xan Şuşinski və Habil Əliyevə aid heykəltəraşlıq əsərlərinin eksponat kimi nümayişi tamaşaçıya emosional təsir imkanı yaratması fikirləri açıqlanır.

Azərbaycan zəngin ədəbi irsinin, qədim mədəniyyətinin təqdimi funksiyasını yerinə yetirən bu abidələr sərhəd tanımayaraq vətəndən uzaqlara da gedib çıxmışlar. Belə ki, Belçikanın paytaxtı Brüsseldə Ümumdünya Gömrük Təşkilatının İqamətgahı qarşısında "Dədə Qorqud" abidəsi, Hüseyn Cavidin Moskvanın Tretyakov qalereyasında nümayiş etdirilən heykəli (1982) bu fikrə misaldır.

Monteneqronun paytaxtı Podqoritsa şəhərində salınmış "Kral park"ında da Hüseyn Cavidə büst ucaldılmışdır. Xalq rəssamı Natiq Əliyev tərəfindən hazırlanan bu büstünün gips versiyası muzeyin Xaqani Şirvani adına Aran Regional Filialının ekspozisiyasında nümayiş olunur. Serbiyada ucaldılan milli operanın banisi Üzeyir Hacıbəyovun büstü, Fransanın Evian şəhərində ucaldılan, müəllifi Salxab Məmmədov və Əli İbadullayev olan Xurşidbanu Natəvanın ölkə xaricində nümayiş olunan heykəllərdəndir.

İki ölkə arasında mədəniyyət əlaqələrinin inkişafında böyük rol oynayan bu əsərlər muzey ekspozisiyasında dövrünün digər görkəmli şair və mədəniyyət xadimlərinə aid eksponatlarla uyğunluq təşkil edir, istənilən yaş qruplu tamaşaçını məlumatlandırmağa xidmət edir.

II fəslin **"Nizami muzeyindəki portretlər və heykəltəraşlıq nümunələrinin səciyyəvi xüsusiyyətləri"** adlı II paraqrafında Nizami muzeyinin ekspozisiyasındakı rəssamlıqda və heykəltəraşlıqda olan portretin hansı prinsiplə sıralanmasını və hansı spesifikliyi ilə seçildiyindən bəhs olunur. Bu əsərlər Nizami muzeyi

---

[31]Hüseynov R.B. Söz heykəli / R.B.Hüseynov.― Bakı: Elm və təhsil,― 2012.― 816 s.― şəkilli.

ekspozisiyanı zənginləşdirən, onun məzmunu haqqında tam təsəvvür yaranmasına kömək edən ən vacib eksponatlardandır. Klassik və müasir Azərbaycan ədib və mədəniyyət xadimləri, dünya ədəbiyyatının görkəmli nümayəndələrinin həyat və yaradıcılıqlarını özündə əks etdirən bu portretlər, bioqrafik məqamları əks etdirən müxtəlif ölçülü tablolar öz səciyyəviliyi ilə seçilir.

Portret və heykəl portretlərin spesifikliyi ondadır ki, insan obrazı müvafiq müstəvidə əks etdirir ki, onun əsasında əyanilik və hissetmə qabiliyyəti durur. Və onlar həyatı təcəssüm etdirir, təsvir olunan obrazın görkəmini və simasını saxlayır. Təsviri sənətin hər iki növü bədii-yaradıcı əhəmiyyətə malikdir. Onlar yalnız zahiri oxşarlığı tərənnüm etmir, həmçinin yaşadığı dövrün baş verən hadisələrinin xüsusiyyətlərini, fərdiliyini, şair və yazıçının xarakter və daxili mahiyyətini, yaradıcılıqlarının məzmununu müxtəlif materiallar və rənglərlə açıb göstərir.

XX əsrin əvvəllərindən başlayaraq həyat və zaman təsviri sənətin (heykəltəraşlıq) qarşısında böyük ictimai və siyasi əhəmiyyətli elə nəcib məsələlər qoymuşdu ki, orta əsrlərdən gələn ənənəvi sənətin məhdud forma və imkanları daxilində onları yerinə yetirmək mümkün deyildi. Yeni qabaqcıl ideyalar forma və məzmun cəhətdən onları əks etdirməyə qadir olan yeni bədii forma, yeni təsvir vasitələri tələb edirdi. Bu da dekorativ formadan realistik təsvir formalarına sıçrayışla keçidə səbəb oldu. Heykəltəraşların yaradıcılığında yeni məzmunlu və realist formalı əsərlər yarandı, surətlə inkişaf edib müxtəlif növ və janrlarla zənginləşdi.

Eldar Əliyevin "Cavanşir", muzeyin baş rəssamı Stanslav Şatikovun "Dədə Qorqud", Kamil Nəcəfovun "Xaqani Təbrizdə", Əyyub Məmmədovun "Xaqani həbs ərəfəsində", Tağı Tağıyevin "Xaqani Mədain xərabələri qarşısında", Nəcəfqulu İsmayılovun "Şah İsmayıl Xətai", "Cəlil Məmmədquluzadə", "Məhəmməd Füzuli", Tahir Salahovun "Koroğlu döyüş ərəfəsində" "Abbasqulu ağa Bakıxanov", "Molla Pənah Vaqif", "Həsən bəy Zərdabi", Oqtay Sadıqzadənin "Nəriman Nərimanov xalq arasında", xalq rəssamı Böyükağa Mirzəzadənin "Hüseyn Cavid Üzeyir Hacıbəylinin

“Koroğlu” operasını dinləyir” tabloları haqqında tədqiqat işində geniş məlumatlar verilmişdir.

Həmçinin tədqiqat işində Akif Əsgərovun “Cavanşir”, Sahib Quliyevin “Dədə Qorqud”, Münəvvər Rzayevanın “Nəsimi”, Əhməd Salikov və Elcan Şamilovun “Mirzə Fətəli Axundov”, “Xaqani Şirvani”, “Səməd Vurğun”, “Nəriman Nərimanov”, “Cəfər Cabbarlı”, Cəlal Qaryağdının “Mirzə Ələkbər Sabir” adlı portret-heykəlləri ilə portretlər arasında oxşar və müqayisəli cəhətlər təhlil olunmuşdur.

Azərbaycan ədəbiyyatının bütün dövrlərini xronologiya üzrə əhatə edən muzey ekspozisiyasında Azərbaycan ədəbiyyatının və mədəniyyətinin xadimlərinin surətlərinin iki təsviri sənət növündə öyrənilməsi muzeylərin funksional fəaliyyətində mühüm əhəmiyyət kəsb edir. Belə ki, tamaşaçısına incəsənət əsərlərinin təbliğində elmi-maarif, estetik-maarif, pedaqoji məqsəd daşıyan muzeyin ümumazərbaycan ədəbiyyat muzeyinə çevrilməsinin başlıca istiqamətlərindən biri də bu fəaliyyətindədir.

Azərbaycanın tanınmış simaları ilə yanaşı Azərbaycan qədim mədəni abidələrinə dəyər verən, onun zəngin mədəniyyəti və ədəbiyyatı ilə tanış olmuş avropalıların da relyef xarakterli portretləri nümayiş olunur. Avropa ədəbiyyatının görkəmli simalarının portret relyefləri və Azərbaycan haqqında dəyərli fikirlərinin ekspozisiyada əksi vasitəsilə tamaşaçıya dünya ədəbiyyatı haqqında ətraflı məlumat verilmiş, çoxmədəniyyətlilik ənənəsinin köklərinin ölkəmizdə təzahürü sübut edilmiş olur.

İkinci fəslin əsas nəticələrini özündə əks etdirən müddəalar elmi mətbuatda nəşr olunmuş məqalələrdə[32] öz əksini tapmışdır.

Dissertasiyanı “**Nizami muzeyinin heykəltəraşlıq fondunun Azərbaycan ədəbiyyatı və mədəniyyətinin təbliğində rolu”** III

---

[32] Həsənova G.S. Şəhər mühitində ədib və mədəniyyət xadimlərinin abidələrinin Nizami muzeyində davam etdirilmə ənənəsi // Risalə. Elmi araşdırmalar toplusu, ─ 2019. №1 (16) 2019, ─ s. 184-191; Həsənova G.S. Nizami muzeyinin ekspozisiyasındakı heykəltəraşlıq örnəklərinin Füzuli şəxsiyyəti və irsinin təqdimində əhəmiyyəti // Gənc tədqiqatçı*:* elmi-praktiki jurnal,─ 2019. c.5. № 1, ─ s.128-135.

fəsli iki paraqrafdan ibarətdir. "**XX əsrin II yarısının görkəmli Azərbaycan yazıçı və şairlərinin heykəlləri və onların işlənmə xüsusiyyətləri"** adlı I paraqrafda dövrün hadisə və gerçəkliklərini öz simalarında əks etdirən XX əsrin II yarısının ədib və mədəniyyət xadimlərinin abidələrindən bəhs olunur. Bu dövrün görkəmlilərinin yaradıcılıqlarının sürətlə inkişafı Böyük vətən müharibəsindən sonrakı dinc quruculuq illərinə düşür. Bu paraqrafda ədəbiyyat və mədəniyyət sahəsində sənət möhürlərini vurmuş bu tanınmışların yaşayıb-yaratdıqları illər üzrə xronologiya gözlənilərək, onların abidələri muzey eksponatı, muzey dəyərli əşya kimi təhlil edilmişdir.

Yeni dövrə dair elmi və bədii materialların əsasında Nizami muzeyinin rəhbərliyi və bir qrup əməkdaşlarının səyi nəticəsində ekspozisiyada ayrıca zallar da yaradılmışdır. "XX əsr Azərbaycan ədəbiyyatı", "Yeni və müasir Azərbaycan ədəbiyyatının inciləri" adlı zallarda monoqrafik təqdimatla yanaşı müəyyən dövrlərin məhsulu olan eksponatlar, bədii, tarixi və incəsənətə aid əsərlər də təbliğ edilir. Nizami muzeyində bu dövrün ədiblərin heykəllərinə müraciət edən heykəltəraşlardan Tokay Məmmədov, Elmira Hüseynova, Natiq Əliyev, Azad Əliyev, Akif Əsgərovun əsərlərinə daha çox rast gəlinir. Süleyman Rəhimov, Həbib Sahir, Süleyman Rüstəm, Mir Cəlal, Rəsul Rza, Bəxtiyar Vahabzadə və başqalarının həm poetik, həm plastik obrazı yaradıralarkən romantik inikas üsuluna müraciət edilir, onun realist obrazını yaratmağa çalışılır, ciddi idrak arasındakı ahəngdarlığı bədii üslub, plastika vasitəsilə əks etdirilir.

Nizami muzeyində nümayiş olunan XX əsrin II yarısının görkəmli şəxslərinə məxsus heykəllərin bir neçəsi onların qəbirüstü abidələridir. İlyas Əfəndiyev, Cavad Heyət, Habil Əliyev, Zəlimxan Yaqub və Ağaxan Abdullayevin abidələri buna misaldır. Qəbirüstü abidələr memorial heykəltəraşlığın bir növüdür. XX əsrdən etibarən surətli inkişafa başlayan bu heykəltəraşlıq növü Azərbaycanın müstəqillik əldə etdiyi illərdən öz tarixi tutumu və mövzu seçiminə görə daha da təkmilləşdi.

Tədqiqat işinin III fəslinin II paraqrafı "**Nizami muzeyinin ölkə xaricindəki memoriallar və muzeylərdəki heykəllərin yaradılmasında fəaliyyəti"** adlanır. Tarix sübut edir ki, Azərbaycan

ölkəsinin suverenliyi və ərazi bütövlüyü uğrunda xidməti olan dövlət qurucularının, canlarından keçən qəhrəmanlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm işlər görümüşdür.

Azərbaycan Xalq Cümhuriyyəti qurucularından olan Əlimərdan bəy Topçubaşovun məzar daşının ölkəyə gətirilməsi, qəbirüstü abidəsinin salınması Nizami muzeyi rəhbərliyinin ölkə xaricindəki memorialların yaradılmasında təqdirəlayiq xidmətlərindəndir. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Ə.Topçubaşovun və ailəsinin xatirəsini, ruhunu özündə yaşadır. Vaxtilə Sen-Klu qəbiristanlığındakı Ə.Topçubaşova və onun ailəsinə qoyulan məzar daşı hal-hazırda muzeyin ekspozisiyasında nümayiş olunur. Muzeyin direktoru akademik Rafael Hüseynov məzarın üzərindəki köhnə, tarixi mənası olan həmin daşı Azərbaycana gətirməkdə köməklik göstərməsini Respublika prezidenti İlham Əliyevdən rica etmişdir. Hər gərəkli təşəbbüsə həmişə açıq olan o böyük insan bu ideyanı da sonacan dəstəklədi, iltifatını əsirgəmədi. Məzar daşı vətənə gətirələrək Nizami muzeyinin ekspozisiyasında yerləşdirildi.[33]

Muzeyin qonaqlarının diqqətini çəkən bu eksponat haqqında verilən informasiya Azərbaycan Xalq Cümhuriyyətinin parlaq simasının şəxsiyyəti, siyasi və diplomatik xidmətlərini əks etdirir. Rafael Hüseynov Bakıda Əlimərdan bəy Topçubaşovun qəbirüstü abidəsinin hazırlanmasını Xalq rəssamı Akif Əsgərova həvalə edir. Müxtəlif materiallarda, fərqli yapma üsulları ilə ərsəyə gətirilən plastik nümunələr Azərbaycan heykəltəraşlarının yüksək sənətkarlığının və görkəmli şəxsiyyətlərin obrazlarının gələcək nəsillər üçün mənəvi qaynağa çevrilə bilməsinin ifadəsidir. Akademikin layihəsi əsasında heykəltəraş Akif Əsgərovun hazırladığı kompozisiyalı, relyef xarakterli Ə.Topçubşovun qəbirüstü abidəsi 2006-cı ilin may ayında məzarı üzərində qoyulur. Heykəltəraşlıq xəzinəmizin qızıl fonduna daxil olmuş bu abidə

---

[33]Cümhuriyyət qurucularına borcları qaytarmaq məqamıdır! - Akademikdən maraqlı təkliflər: [elektron resurs]/ http://modern.az/az/news/161497#gsc.tab=0 (İstifadə olunma tarixi: 15.06.2018).

xatirə-memorial və memarlıq kompleksi öz plastik forma rəngarəngliyi və estetik təsir gücü ilə səciyyələnir.

Nizami muzeyinin ölkə xaricində memorialların yaradılmasındakı fəaliyyətinə Mehdi Hüseynzadəyə həsr edilən ayrıca xatirə muzeyinin açılması da aiddir. Muzey 2011-ci ildə Sloveniyanın Novo-Qoritsa şəhərinin Şempats qəsəbəsində yaradılmışdır. Muzeyin ekspozisiya planının müəllifi və qurucusu Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynovdur. Mehdi Hüseynzadəyə aid memorial muzeyin yaradılması həm Azərbaycan, həm də Sloveniya hökumətlərinin bu torpaqların faşizm təhlükəsindən azad olunması yolunda öz canından keçmiş qəhrəmanın xatirəsinə sayğının göstəricisidir. Direktor Nizami muzeyində də Mehdi Hüseynzadəyə aid ekspozisiya açmışdır. Muzeydə yaradılan ekspozisiyada Mehdi Hüseynzadənin həyat və fəaliyyətini əks etdirən fotoları, təsviri sənət əsərləri, qəhrəmanın xatirə əşyaları, rəsmləri, heç bir yerdə işıq üzü görməyən məktubları, ailə arxivindən indiyə qədər işıqlanmayan şeirləri və digər sənədləri toplanmışdır.

Nizami muzeyinin fəaliyyəti ilə ölkə xaricində memorialların və xatirə muzeyindəki heykəllərin yaradılması ölkələr arasında mədəni və siyasi əlaqələrin qurulmasına xidmət edir. Üçüncü fəslin əsas nəticələrini özündə əks etdirən müddəalar elmi mətbuatda nəşr olunmuş məqalələrdə[34] öz əksini tapmışdır.

Dissertasiyanın **"Nəticə"** hissəsində Nizami muzeyinin keçdiyi yaradıcılıq yolunun öyrənilməsi, dəyərli eksponatlardan olan heykəltəraşlıq nümunələrinin tədqiqat işi vasitəsilə araşdırılması

---

[34] Гасанова Г.С. Деятельность Национального Музея Азербайджанской Литературы имени Низами Гянджеви в создании мемориалов и скульптур в музеях // за пределами страны Вестн. КазНПУ. Серия «Художественное образование: искусство – теория – методика».— Алматы: — 2018, 3(56), 4(57).— с. 75-79; Гасанова Г.С. Роль музея Низами в популяризации азербайджанской культуры за рубежом // Казахский Национальный Университет им. Аль-Фараби. Вестник,— Алматы: Казак Университети,— 2019. № 2 (68), —с. 146-150.

muzeyşünaslıq elminin inkişafına az da olsa təkan verdiyi qənaətinə gələ bilərik. Yekun olaraq tədqiqat işi zamanı bu kimi nəticələrə gəlinmişdir:

- Nizami muzeyi bir xalqın ədəbiyyat tarixini və mədəniyyətini ən qədim müasir dövrədək kompleks halda bəşəriyyətə təqdim edən dünyada yeganə ədəbiyyat muzeyidir;

- Yalnız Nizamini deyil, Azərbaycan ədəbiyyatını ehtiva edən muzeyin yaradılması qərarı bəstəkarlar, xalçaçılar, memarlarla yanaşı rəssam və heykəltəraşları da yeni yaradıcılıq uğurlarına ruhlandırmışdır. Milli heykəltəraşlığın böyük bir nəslinin yaratdıqları əsərlərlə muzey ədəbiyyatımızın, o cümlədən şairin küliyyatının carçısına çevrildi;

- Muzey fasadında klassiklərin abidələrinin ucaldılması Azərbaycan sovet memarlığında ilk dəfə binanın heykəltəraşlıqla memarlığın sintezinə ən gözəl nümunə olduğunu sübut etdi;

- Heykəltəraşların Nizaminin həyat və yaradıcılığına müraciəti istər yeni, istər də keçmiş nəsil nümayəndələri varislik ənənələrinə ehtiramla yanaşdığını, sələflərinin təcrübəsindən novatorcasına bəhrələndiyini göstərir;

- Heykəltəraşlıq örnəklərinin muzey əhəmiyyətli əşya kimi məzmun dolğunluğu təsviri sənətin bədii-estetik mahiyyətinin, formasının müəyyənləşməsi istiqamətində mühüm rol oynayır;

- Heykəltəraşların şəhərin açıq səma altında nümayiş olunan əsərlərinin muzey ekspozisiyasında yer alması Azərbaycanın qədim ədəbi irsini təbliğ edərək Nizami muzeyini ümümazərbaycan ədəbiyyat muzeyinə çevrilməsinə şərait yaratmışdır;

- Azərbaycan və ölkə xaricində olan ədib abidələrinin yalnız müəyyən qisminin Nizami muzeyində yerləşməsində məqsəd ekspozisiyanın təchizi zamanı tamaşaçıların sosial-demoqrafik tərkibi nəzərə alınmış, maraq və tədris üçün ekspozisiyanın qavranılmasına kömək göstərməkdir;

- Şəhər mühiti heykəltəraşlığının muzeydə davametdirmə ənənəsinin üstünlüyü ondadır ki, muzey elmi və estetik-maarif işi funksional fəaliyyətini həyata keçirir ki, bu zaman heykəllər yalnız dekorativlik yox, ekspozisiyanın tematik plana uğun tərtib edilir.

Bələdçilər vasitəsilə həm şair və sənət adamları, həm onu yaradan heykəltəraşlar, həm də o dövrü xarakterizə edən digər eksponatlarla kompleks şəkildə məlumat əldə etmək imkanı olur;

- Realistik planda işlənən ədib və mədəniyyət xadimlərin portretləri və portret heykəlləri ədəbiyyatşünaslıqla təsviri sənətin qarışılıqlı əlaqəsini üzə çıxarır;

- Yaddaşlarda əbədi qalacaq hadisələrin bədii ifadəsi olan, tarixi-psixoloji tutumlu mövzuların heykəltəraşlıq nümunələri vasitəsilə təqdimi tarixi janrın tarixi-bədii qaynaq kimi daim inkişafda olduğunu göstərir;

- Nizami muzeyinin fəaliyyəti ilə ölkə xaricində memorialların və xatirə muzeyindəki heykəllərin yaradılması təbliğat xarakteri daşıyır, ölkələr arasında dostluq və əməkdaşlıq münasibətlərini möhkəmləndirir, mədəni, siyasi əlaqələrin qurulmasına, inkişaf etdirilməsinə xidmət edir.

**Dissertasiya işinin mövzusuna dair müəllifin dərc olunmuş elmi əsərlərinin siyahısı:**


1. Nizami muzeyinin heykəltəraşlıq fondu // Risalə. Araşdırmalar toplusu, ─2014. №10,─ s. 143-149.
2. Nizami muzeyində "Xəmsə" sujetlərinin heykəltəraşlıq istiqaməti // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin elmi əsərləri,─ 2016. №2, ─ s. 39-45.
3. Muzey fasadında ucaldılan şair heykəlləri və onların Nizami abidəsi ilə səsləşməsi // Mədəniyyət.az,─ 2017, iyul-avqust (314),─ s. 76-78.
4. Cəlal Qaryağdının "Fərhad Bisütun dağını yararkən" heykəltəraşlıq kompozisiyası // Risalə. Araşdırmalar toplusu, ─2017. №13,─ s. 201-205.
5. Müstəqillik illərində təsviri sənətimizi dünya müstəvisində tanıtdıran Nizami heykəlləri // "Müstəqillik dövründə Azərbaycan Təsviri sənətinin inkişafı" I Respublika elmi-nəzəri konfransın materialları. Bakı,─ 25 oktyabr 2017,─s. 64-66.
6. Dünyanın Nizamisi // Qobustan,─ 2017 (3).─ s. 65-67.

7. Şah İsmayıl Xətainin hökmdar və şair surəti heykəltəraşlıqda // "Xətainin qılıncı və qələmi" mövzusunda respublika elmi konfransının materialları,─ Bakı:─ 23 noyabr,─ 2017, ─ s. 154-157.
8. Əlimərdan bəy Topçubaşovun əbədiləşdirilən xatirəsinin tarixi-memorial dəyəri // Azərbaycan Xalq Cümhuriyyəti: tarixi retrospektivlik və müasirlik" mövzusunda elmi konfransın materialları,─ Bakı: Elm və təhsil,─ 20 fevral,─ 2018, ─ s. 260-264.
9. Qəhrəman Mehdi Hüseynzadənin obrazı yaddaşlarda və sənətdə // Gənc tədqiqatçıların II beynəlxalq elmi konfransı (materiallar), ─ Bakı: ─ 27-28 aprel,─ 2018,─ s.1674-1677.
10. Şirvanşahlar dövrü ədibləri Nizami Muzeyi ekspozisiyasının heykəltəraşlıq nümunələrində // "Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət" I beynəlxalq elmi konfransın materialları,─ Bakı:─ 23-24 oktyabr,─ 2018, ─ s. 639-647.
11. Yaddaşlara, heykəllərə köçən Müşfiq // Qobustan,─ 2018, (3/180), ─ s. 61-65.
12. Деятельность Национального Музея Азербайджанской Литературы имени Низами Гянджеви в создании мемориалов и скульптур в музеях //за пределами страны Вестн. КазНПУ. Серия «Художественное образование: искусство – теория – методика».─ Алматы: ─ 2018,3(56), 4(57).─ с. 75-79.
13. Presentation of the personality and heritage of Nizami through the sculptural patterns of Nizami museum // Українська культура: минуле, сучасне, шляхи розвитку : наук. зб. Напрям: Культурологія. Вип. 29.─ Рівне: РДГУ, ─2018.─ р. 126-130.
14. Azərbaycan mədəniyyətinin dünyaya təqdimində Nizami muzeyinin heykəltəraşlıq fondunun rolu // "Muzeyşünaslığın tədrisi problemləri" adlı II Respublika elmi konfransının materialları,─ Bakı:─ 30 noyabr,─ 2018,─ s. 250-254.
15. The Image and Romanticism of Huseyn Javid in Art // Соціально-гуманітарні дослідження та інноваційна освітня діяльність. Матеріали Міжнародної наукової конференції. 24-25 травня 2019 р., м.Дніпро. / Наук. ред. О.Ю.Висоцький. – Дніпро: СПД «Охотнік», ─ 2019. – р. 283-285.

16. Nizami muzeyinin ekspozisiyasındakı heykəltəraşlıq örnəklərinin Füzuli şəxsiyyəti və irsinin təqdimində əhəmiyyəti // Gənc tədqiqatçı*:* elmi-praktiki jurnal,— 2019. c.5. № 1, — s.128-135.
*17.* Şəhər mühitində ədib və mədəniyyət xadimlərinin abidələrinin Nizami muzeyində davam etdirilmə ənənəsi // Risalə. Elmi araşdırmalar toplusu, — Bakı, — 2019. №1 (16), — s. 184-191.
18. Роль музея Низами в популяризации азербайджанской культуры за рубежом // Казахский Национальный Университет им. Аль-Фараби. Вестник,— Алматы: Казак Университети,— 2019. № 2 (68), — с. 146-150.
19. Nizami İmgesi Sınırlarımızın Ötesinde // Uluslararası Türk Kültür ve Sanatı Sempozyumu, — Ankara: Etimesgut, — 29-30 ekim, — 2020, — s.167.
20. "Xəmsə" süjetli ilk qorelyef // Klassik Azərbaycan ədəbiyyatı və incəsənətinin milli özünütəsdiqdə və Mərkəzi Asiyadakı mədəni tərəqqidə yeri" mövzusunda Beynəlxalq elmi konfransın materialları, — Bakı: Elm və təhsil, — 23-25 dekabr, — 2020, — s.245-246.
21. Nizami image and role of "Khamsa" subjects in the development of bench sculpture // İncəsənət və mədəniyyət problemləri. Beynəlxalq Elmi jurnal, — Bakı, — 2021. № 2 (76), — s.83-91.

Dissertasiyanın müdafiəsi 29 oktyabr 2021-ci il tarixində saat 12:00-da AMEA Memarlıq və İncəsənət İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.34 Dissertasiya şurasının bazasında BFD 1.34 qeydiyyat nömrəli Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti, 115, 4-cü mərtəbə.

Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Memarlıq və İncəsənət İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 24 sentyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:   20.09.2021

Kağızın formatı $60_x84^{1/16}$

Həcm: 39364

Tiraj: 100